# Azərbaycanda dövlət-din münasibətləri bütün dünya üçün örnəkdir

Qafqaz Müsəlmanları İdarəsinin sədri Şeyxülislam Allahşükür Paşazadə Mərakeş Krallığının Fəs şəhərində keçirilən Birləşmiş Millətlər Təşkilatı Sivilizasiyalar Alyansının IX Qlobal Forumunda iştirakı çərçivəsində Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin üzvləri ilə görüş keçirib.



Mərakeş Krallığının ali dəstəyi və evsahibliyi, Birləşmiş Millətlər Təşkilatının Baş katibi Antonio Quterreşin qatıldığı, BMT-nin Sivilizasiyalar Alyansının Ali nümayəndəsi Miquel Anqel Moratinosun və qərargahı Azərbaycanda yerləşən Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin birgə təşkilatçılığı ilə keçirilən BMT-nin "Sülh Alyansına Doğru: Vahid bəşəriyyət olaraq birlikdə yaşamaq" Forumunun işində mərkəzin həmsədri, Latviyanın sabiq Prezidenti Vayra Vike-Freyberqa, ICESCO-nun sabiq baş direktoru Əbdüləziz əl-Tuveycri, Gürcüstanın sabiq Prezidenti Qiorqi Marqvelaşvili, Serbiyanın sabiq Prezidenti Boris Tadiç, Bosniya və Herzeqovinanın sabiq Prezidenti Mladen İvaniç, Latviyanın sabiq Prezidenti Valdis Zatlers, Bolqarıstanın sabiq Prezidenti Petar Stoyanov, Çexiyanın sabiq Baş naziri Yan Fişer, Ərəb Dövlətləri Liqasının sabiq baş katibi Amr Musa, İsrailin sabiq xarici işlər naziri Tzipi Livni, Gürcüstanın sabiq baş nazirinin müavini Eka Tkeşelaşvili, BMT-nın 73-cü və 75-ci Baş Assambleyalarının prezidentləri Maria Fernanda Espinoza və Volkan Bozkır iştirak ediblər.

Şeyxülislam Allahşükür Paşazadə mərkəzin üzvləri ilə görüş zamanı Azərbaycanın 2020-ci ildə Ali Baş Komandan, Prezident İlham Əliyevin rəhbərliyi ilə Ermənistanın hərbi təcavüzünə son qoyaraq, dünya birliyi tərəfindən tanınmış ərazi bütövlüyünü bərpa etdikdən sonra işğal dövründə törədilmiş vandalizm aktları nəticəsində dağıdılmış və təhqirə məruz qalmış dini-mədəni abidələrimizin, məscidlərlə yanaşı, digər dini məbədlərin bərpa edilməsi, aparılan genişmiqyaslı yenidənqurma işləri ilə bağlı məlumat verib. O, görüş iştirakçılarının diqqətini hərbi əməliyyatların 2 il öncə başa çatmasına baxmayaraq, Ermənistanın ərazilərimizi tərk edərkən həyata keçirdiyi genişmiqyaslı minalama əməliyyatları nəticəsində hələ də 250 nəfərin həlak olması, yüzlərlə insanın yaralanması, Ermənistanın minalama xəritələrini təqdim etməkdən yayınması faktlarına çəkmişdir. Vurğulanmışdır ki, Azərbaycanın qalib tərəf olmasına baxmayaraq, yenə də sülhə dəvət edən tərəf kimi təşəbbüs göstərməsi olduqca təqdirəlayiqdir.

Görüş iştirakçıları Azərbaycanın multikultural modelinin unikallığını xüsusi qeyd edərək ölkəmizdə hökm sürən dinlərarası harmoniyanın və yüksəksəviyyəli dövlət-din münasibətlərinin bütün dünya üçün örnək olduğunu bildiriblər.

Görüşün sonunda Şeyxülislam Allahşükür Paşazadə Nizami Gəncəvi Mərkəzinin üzvlərini növbəti dəfə Bakıya səfərləri zamanı qəbul etməkdən məmnunluq duyacağını ifadə edib.

*Ülkər XASPOLADOVA,*
*"Azərbaycan"*

Azərbaycan.- 2022.- 25 noyabr.- S.10.